Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 19-20 (8471) ◉ Çərşənbə axşamı, 04 iyun 2019-cu il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

T.A.QARAŞOVUN 2-Cİ DƏRƏCƏLİ "VƏTƏNƏ XİDMƏTƏ GÖRƏ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Taleh Azay oğlu Qaraşov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti.

Bakı şəhəri, 18 may 2019-cu il.

MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARI SAHİBKARLARIN HÜQUQLARININ ETİBARLI MÜDAFİƏSİNƏ TƏMİNAT VERİR

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə Ədliyyə Nazirliyi tərəfindən ardıcıl tədbirlər görülür, bu mühüm sənədin müstəsna əhəmiyyəti, o cümlədən məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, mediasiya institutunun təşviqi, sahibkarların hüquqlarının etibarlı müdafiəsi və digər məsələlər barədə geniş maarifləndirmə işləri aparılır.

Mayın 16-da Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə "Vətəndaşların və sahibkarların hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının əhəmiyyəti" mövzusunda ictimai müzakirələr keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirdə Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, nazir müavinləri və nazirliyin digər məsul şəxsləri, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Şirvan Apelyasiya və ətraf rayon məhkəmələrinin sədrləri, hakimlər, vəkillər, regional və yerli ədliyyə qurumlarının rəhbərləri, çoxsaylı sahibkarlar, vətəndaş cəmiyyətinin və ictimaiyyətin digər nümayəndələri, KİV-lər iştirak ediblər.

Tədbiri açan Ədliyyə naziri ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini, sahibkarlığın inkişafına dövlət qayğısını vurğulayıb, ölkədə aparılan hərtərəfli islahatların məhkəmə-hüquq sistemini də əhatə etdiyini, ötən dövrdə bu sahədə bir çox mühüm tədbirlərin həyata keçirildiyini bildirib, dövlət başçısının 3 aprel tarixli Fərmanının ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu və bu mühüm sənədin icrası, o cümlədən sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsi üzrə görülən işləri qeyd edib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ölkədə sosial-iqtisadi inkişafın təmin edildiyini, respublikanın bütün bölgələrində, o cümlədən Lənkəran rayonunda uğurların əldə olunduğunu diqqətə çatdırıb, məhkəmə-hüquq sistemində aparılan islahatların vətəndaşların, habelə sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına xidmət etdiyini bildirib.

Tədbirdə dövlət başçısının Fərmanının məhkəmələrə əlçatanlığın və müraciət imkanlarının yaxşılaşdırılmasında rolu, sahibkarların hüquqlarının müdafiəsində məhkəmə təminatının vacibliyi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılmasının sahibkarların və digər tələbkarların hüquqlarının bərpasında əhəmiyyəti, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsində müasir texnologiyaların tətbiqi barədə çıxışlar edilib, "Elektron məhkəmə", "Elektron icra" informasiya sistemlərinin imkanları və ədliyyə sahəsində digər innovasiyalar əyani təqdimatla nümayiş etdirilib.

Bildirilib ki, son vaxtlar sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin həllinin tezləşdirilməsi ilə bağlı mühüm addımlar atılıb, o cümlədən iqtisadi mübahisələr üzrə işlərə elektron qaydada baxılmasına keçilib, sahibkarların hüquqlarının təmin olunmasında məhkəmə qərarlarının icrasının yaxşılaşdırılması üzrə tədbirlər görülüb.

Sonra tədbir iştirakçıları ilə sual-cavab sessiyası keçirilib, müzakirələr aparılıb. Qeyd olunub ki, dövlət başçısının Fərmanına əsasən vergi və gömrük ödənişləri, habelə sahibkarlıq fəaliyyəti ilə bağlı digər mübahisələrə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, bu məqsədlə mülki-prosessual qanunvericiliyin təkmilləşdirilməsi sahibkarların hüquqlarının etibarlı müdafiəsinə, onların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət edir.

Tədbirə yekun vuran nazir məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələ olan ölkə Prezidentinin Fərmanının icrası nəticəsində ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına, əlçatanlığın asanlaşdırılmasına, yüksək vətəndaş məmnunluğuna, sahibkarlığın inkişafının surətlənməsinə nail olunacağını vurğulayıb.

"Lənkəran"

APARAT MÜŞAVİRƏSİNDƏ

Mayın 22-də Lənkəran Şəhər İcra Hakimiyyətində rayonda abadlıq-quruculuq sahəsində görülən işlər, kənd təsərrüfatında və baramaçılığın inkişafında həyata keçirilən tədbirlərlə bağlı aparat müşavirəsi keçirilib. Rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, İcra nümayəndələri və bələdiyyə sədrlərinin iştirak etdiyi tədbirdə İcra başçısı Taleh Qaraşov geniş nitq söyləyərək ölkədə siyasi sabitliyin möhkəmlənməsi, sosial-iqtisadi inkişafın surətlənməsi, əhalinin rifah halının durmadan yaxşılaşdırılması istiqamətində cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin bəhrələri barədə ətraflı məlumat verib.

Natiq qeyd edib ki, radikal müxalifətin və onların xarici havadarlarının təxribatçı əməllərinə, böhtan, şər kampaniyalarına baxmayaraq, Azərbaycan iqtisadi cəhətdən surətlə inkişaf edir, dünyada nüfuzunu artırır. Ölkədə siyasi sabitlik və vətəndaş həmrəyliyi getdikcə möhkəmlənir. Əhaliyə göstərilən dövlət qayğısı hər bir ailənin sosial rifahını yüksəldir. Cənab Prezidentin davamlı diqqəti və qayğısı ilə ölkənin hər yerində olduğu kimi, Lənkəran rayonunun da sosial-iqtisadi inkişafı sahəsində böyük uğurlar qazanılır.

Rayonun ictimai-siyasi həyatında baş verən müsbət tendensiyaların bütün sahələrdə olduğu kimi, abadlıq-quruculuq sahəsində və aqrar sektorda da işlərin uğurlu gedişinə əlverişli imkanlar yaratdığını önə çəkən natiq göstərilən sahələrdə qazanılan yüksək nəticələri həyata keçirilən sosial siyasətin bəhrəsi kimi dəyərləndirib.

İcra başçısı yaxın aylarda istifadəyə verilməsi nəzərdə tutulan obyektlərdə tikinti işlərinin vəziyyəti barədə danışaraq bu işlərin daha da surətləndirilməsinin vacibliyini qeyd edib. Eyni zamanda, natiq aqrar sahədəki işlər barədə də danışaraq rayonda çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair həyata keçirilən 3 dövlət proqramının icrasında qarşıda duran vəzifələri bir daha müşavirə iştirakçılarının diqqətinə çatdırmaqla mövcud imkanlardan və yem bazasından səmərəli istifadə etməklə rayonda baramaçılığın inkişafının iqtisadi əhəmiyyəti barədə fikirlərini söyləyərək müvafiq tövsiyə və tapşırıqlarını verib.

Müşavirədə İcra başçısının birinci müavini Möhübbət Babayev və digər natiqlər çıxış edərək Lənkəran şəhərində və rayon ərazisində aparılan abadlıq, səliqə-sahman işləri və buraxılış obyektlərinin mövcud vəziyyəti barədə məlumat veriblər.

"Lənkəran"

İCRA BAŞÇISININ SƏYYAR QƏBUL-GÖRÜŞLƏRİ

Xanbulan kəndində

Mayın 15-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov rayonun Xanbulan kəndində sakinlərlə səyyar qəbul-görüş keçirib. İcra aparatının məsul işçilərinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət idarələri rəhbərlərinin iştirak etdiyi qəbulda sakinlərin müraciətləri dinlənilib, qaldırılan məsələlər yerindəcə araşdırılaraq həllindən ötrü aidiyyəti məsul şəxslərə müvafiq tapşırıqlar verilib.

Səyyar qəbula görə razılıqlarını bildirən sakinlər vətəndaş müraciətlərinin diqqətlə araşdırılması, onları narahat edən problemlərin həlli ilə bağlı dövlət səviyyəsində görülən işləri yüksək dəyərləndiriblər. Çıxışlarda müxtəlif məsələlərlə bağlı arzu və təkliflər səsləndirilməklə yanaşı, inzibati ərazi dairəsinə daxil olan kəndlərdə çoxmənzilli yaşayış binalarının dam örtüklərinin əsaslı təmirinə, əhalinin maddi-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı qəbul olunan qərarlara, ən ucqar kəndlərdə müasir yol infrastrukturunun qurulmasına, yeni məktəblərin tikilməsinə və kənd təsərrüfatı məhsulları istehsalçılarına verilən dəstəyə görə ölkə başçısına minnətdarlıq ifadə olunub.

Şıxəkəran kəndində

Mayın 22-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü rayonun Şıxəkəran kəndində keçirib. İcra aparatının məsul işçilərinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət sahələri rəhbərlərinin iştirakı ilə keçən görüşdə müraciət edən vətəndaşların qaldırdıqları məsələlər aidiyyəti məsul şəxslərin iştirakı ilə araşdırılıb və həlli ilə əlaqədar müvafiq tapşırıqlar verilib.

Kənd sakinləri səyyar qəbula görə razılıqlarını bildirərək onların müraciətlərinin yerindəcə araşdırılmasını, mövcud problemlərin həlli ilə bağlı dövlət səviyyəsində görülən işlərə görə ölkə Prezidentinə minnətdarlıqlarını səsləndiriblər.

Çıxışlarda vətəndaşlar əvvəlki görüşlər zamanı müraciətlərində qaldırdıqları məsələlərin vaxtında həll olunmasını, kənddə ən müasir tələblərə cavab verən yeni məktəb binasının tikintisini, yolların əsaslı təmirini, içməli su xəttinin çəkilməsini, elektrik təsərrüfatının yenilənməsini, kəndin tamamilə qazlaşdırılmasını ölkə başçısının həyata keçirdiyi sosial siyasətin bəhrəsi olduğunu qeyd edərək bu siyasətdən məmnun olduqlarını bildiriblər.

Günəhir kəndində

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü mayın 29-da rayonun ucqar yaşayış məntəqələrindən olan Günəhir kəndində keçirib.

Hüquq-mühafizə orqanları, əlaqədar xidmət sahələri rəhbərlərinin, Günəhir inzibati-ərazi vahidliyinin tərkibindəki Günəhir, Türkəncil və Qodəcə kəndləri sakinlərinin iştirak etdiyi görüşdə vətəndaşlar səyyar qəbul-görüşə görə İcra başçısına təşəkkürlərini bildiriblər. Çıxış edən sakinlər ərazinin sosial-iqtisadi inkişafı sahəsində görülən işlərdən söz açaraq, Lənkəran-Vilvan-Osaküçə-Günəhir yolunun asfaltlaşdırılmasına, kəndə 5 kilometrlik içməli su xəttinin çəkilişinə, tibb məntəqəsinin tikilərək istifadəyə verilməsinə və digər infrastruktur layihələrin icrasına görə razılıqlarını ifadə ediblər.

Səyyar qəbul-görüşdə çıxış edən İcra başçısı T.Qaraşov ölkəmizdə ucqar dağ kəndlərinə göstərilən dövlət qayğısından, son zamanlar həyata keçirilən layihələrdən və bundan sonra icrası nəzərdə tutulan işlərdən söz açıb.

Natiq təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan dövlətinin cənab Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ilə uğurla inkişaf etdiyini, əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönələn dövlət tədbirlərinin miqyasının getdikcə genişləndiyini, cənab Prezident tərəfindən imzalanan çoxsaylı sərəncamlarla minimum əmək haqlarının, bütün növ müavinətlərin, pensiyaların, müharibə veteranları, əlilləri, şəhid ailələrinə verilən təqaüdlərin miqdarının əhəmiyyətli dərəcədə artırıldığını, problemli kreditlərin əhalinin xeyrinə həllini tapdığını diqqətə çatdırıb.

İcra başçısı sosialyönümlü tədbirlərin bundan sonra da davam edəcəyini bildirərək, görüş iştirakçılarını ölkə rəhbəri ətrafında sıx birləşməyə, respublikamızda bərqərar olan əmin-amanlığı, sabitliyi qorumağa, doğma vətənimizin daha da qüdrətlənməsi naminə cənab Prezidentin həyata keçirdiyi əhəmiyyətli işlərə hər zaman dəstək olmağa çağırıb.

"Lənkəran"

LƏNKƏRANDA UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜ QEYD OLUNUB

Lənkəran şəhər mədəniyyət mərkəzində 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş şənlik keçirilib. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uşaqlarla görüşlərindən kadrları əks etdirən videosüjet nümayiş etdirilib.

Rayonun ümumtəhsil məktəbləri şagirdlərinin, uşaq bağçalarının körpə fidanlarının və uşaq musiqi məktəbləri kollektivlərinin ifasında səslənən şən mahnı və rəqslər tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Şənlikdə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov uşaqları bayram münasibətilə təbrik etməklə onlara xoş arzularını çatdırıb. İcra başçısı rayonda keçirilən tədbirlərdə fəallıq göstərən bir qrup istedadlı uşağa ŞİH-nin Fəxri fərmanlarını və xatirə hədiyyələri təqdim edib.

Qeyd edək ki, 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə şəhərin Heydər Əliyev Xatirə Parkında, uşaq evində, orta ümumtəhsil məktəblərində və uşaq bağçalarında da rəngarəng bayram tədbirləri keçirilib.

"Lənkəran"



HEYDƏR ƏLİYEV FONDU

LƏNKƏRANDA İFTAR SÜFRƏSİ AÇIB

Mayın 31-də Heydər Əliyev Fondu tərəfindən Lənkəran şəhərinin "Şah" şadlıq sarayında Ramazan bayramı ilə əlaqədar iftar sürfəsi açılıb.

Rayonda yaşayan şəhid ailələri üzvlərinin, əlil şəxslərin, müharibə vete- ranlarının, din xadimlərinin və mömin şəxslərin, ümumilikdə 350 nəfərin iştirak etdiyi iftar süfrəsində xeyriyyəçilik aksiyalarının keçirilməsində və sosial qayğıya ehtiyacı olan insanlara köməkliyin göstərilməsində Heydər Əliyev Fondunun prezidenti, birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdiyi ibrətamiz layihələr yüksək dəyərləndirilib, Ramazan ayının fəzilətləri barədə söhbət açılıb, bu ayın insanlar arasında birlik, bərabərlik və həmrəyliyin tərənnümçüsü olduğu qeyd olunub, ölkəmizə əmin-amanlıq və sülh arzulanıb, Ulu Öndər Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhuna dualar oxunub.

İftar süfrəsində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, İcra aparatının rəsmiləri və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak ediblər.

LƏNKƏRANDA "AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: TARİX VƏ MÜASİRLİK" MÖVZUSUNDA MÜZAKİRƏ

16 və 17 may tarixlərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik" mövzusunda ikigünlük seminar-müşavirə keçirilib.

Dindarların, dini icma sədrlərinin, gənclər və ictimaiyyətin digər nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov mövzunun əhəmiyyətindən danışıb. Şöbə müdiri qeyd edib ki, bu cür maarifləndirmə tədbirlərinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı təmsil etdiyi qurumun dini dəyərlərin təbliğatı istiqamətində həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verib. Görülən işlərin millimənəvi və islami dəyərlərin təbliği və təşviqində, dini qurumlarla dövlət təşkilatları, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb etdiyini bildirib. Xurafatın bütün cəmiyyət üçün təhlükəli olduğunu qeyd edən sədrin birinci müavini dini radikalizmə qarşı mübarizədə mühüm vasitə olan dini maarifləndirmə prosesində cəmiyyətin bütün təbəqələrinin fəal olmalarının zəruriliyinə toxunub.

Azərbaycan qanunvericiliyində dini dözümlülüyü, vicdan azadlığını, dövlət-din münasibətlərini özündə əks etdirən müddəalar barədə də danışan Səyyad Salahlı bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də vətəndaşlara tolerant mühit yaradıldığını deyib. Bildirib ki, dünyada dinlər və məzhəblərarası münaqişələrin baş verdiyi dönəmdə Azərbaycan özünün tolerantlıq ənənələrini və multikulturalizm modelini dünyaya nümunə kimi təqdim edir. S.Salahlı tolerantlığın radikalizmin qarşısının alınmasında mühüm vasitə olduğunu vurğulayıb.

Lənkəran ŞİH başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Asif İmanlı çıxışında qeyd edib ki, milli-mənəvi dəyərlər arasında din amili mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyin Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu tədbir iştirakçılarının diqqətinə çatdıran natiq cənab Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini qeyd edib.

QMİ-nin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə çıxışında dövlətin dinə və dindarlara qayğısından bəhs edib. Ölkəmizdə 2200-dən artıq məscidin mövcud olduğunu vurğulayan Q.Axundzadə son illərdə bütün dini ocaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni dini ibadətgahların inşasını ölkə başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin gözəl nümunəsi adlandırıb.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı Ramil Baxşəliyev dini radikallığın mahiyyəti və meyarlarından söhbət açıb. Dini radikalizmə zəmin yaradan amillər barədə də danışan natiq din uğrunda edilən müharibələr və ya din pərdəsi altında aparılan işğalçılıq fəaliyyətlərinin dini radikalizmin bariz örnəklərini təşkil etdiyini bildirib.

İslam dininin sülhsevərliyi, tolerantlığı təbliğ etməsindən, həmçinin zorakılığa və terrora qarşı olmasından bəhs edən "Üfüqdəki gələcək" filminin də nümayiş etdirildiyi ikigünlük seminar-müşavirə müzakirələrlə öz işini yekunlaşdırıb.

A.ŞAĞLASERLİ

5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür

ƏRZAQ BOLLUĞU YARADANLAR



Ölkəmizdə bütün peşə sahələri, o cümlədən su təsərrüfatı və meliorasiya işçilərinin əməyi çox qiymətli və şərəflidir. Meliorasiya və su təsərrüfatı işçiləri o insanlardır ki, məhz onların əməyi ilə susuz ərazilər cana gəlir, bataqlıqlar qurudulur, bəndlər və dambalar tikilməklə çayların axınları tənzimlənir, ölkə əhalisinin ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə etibarlı təminatı üçün əlverişli mühit yaradılır.

Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq məhz Azərbaycanda 1996-cı ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Meliorasiya və irriqasiya haqqında" Qanunun imzalandığı 5 iyun tarixi sonralar dövlətimizin başçısı İlham Əliyevin imzaladığı 24 may 2007-ci il tarixli sərəncamla "Meliorator günü" kimi qeyd edilmişdir. Həmin peşə bayramının miqyasını daha da genişləndirən, su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək qiymət verən Prezident hörmət əlaməti olaraq 5 iyun -"Su təsərrüfatı və meliorasiya işçiləri günü"nün peşə bayramı kimi qeyd olunması barədə 14 may 2014-cü il tarixli Sərəncam imzalamışdır. Sərəncamın imzalanması ölkə başçısının meliorasiya və su təsərrüfatı sahəsinə göstərdiyi mütəmadi diqqət və qayğının bariz nümunəsi kimi su təsərrüfatı və meliorasiya işçiləri tərəfindən minnətdarlıqla qarşılanmış, onları çətin və şərəfli işlərinə daha çox bağlamışdır.

Onu da qeyd etmək yerinə düşər ki, ölkəmizdə kənd təsərrüfatı əkinlərini fasiləsiz olaraq suvarma suyu ilə təmin etmək üçün bütün mövcud imkanlar səfərbər olunur, istismar və təmir-bərpa işlərinin səmərəliliyinin yüksəldilməsi intensiv davam etdirilir.

Bu sahədə Lənkəran Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsinin kollektivinin də xüsusi payı vardır. Əməkdaşımız peşə bayramları ərəfəsində Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsinin rəisi, "Tərəqqi" medallı Allahyar Salayevlə görüşüb rəhbərlik etdiyi kollektivin suvarma mövsümü ilə əlaqədar gördüyü tədbirlər barədə danışmasını xahiş etmişdir. A.Salayev demişdir:

– Bu gün Azərbaycan xalqı və ölkə melioratorları fəxr edə bilərlər ki, Ulu Öndər Heydər Əliyevin yolunu, siyasi kursunu müvəffəqiyyətlə davam etdirən, bir çox uğurlara nail olan Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Məhz onun bilavasitə təşəbbüsü sayəsində respublikamızda meliorasiya sahəsinə qoyulan investisiyaların həcmi ildən-ilə artmaqdadır. Nəticədə mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşmış, işçilərin əməkhaqqı dəfələrlə artmış, sahənin maddi-texniki bazası gücləndirilmişdir.

Təqdirəlayiq faktdır ki, son illər rayonumuzda da investisiya və əsaslı vəsait qoyuluşu hesabına bir sıra layihələr həyata keçirilmişdir. Buna misal olaraq Xəzər dənizində suyun səviyyəsinin qalxması ilə əlaqədar sahilbərkitmə işlərinin görülməsini, sel suların və daşqınların qarşısının alınması üçün yeni kollektorlar və onların üzərində hidrotexniki qurğuların tikintisini, çayların məcralarının genişləndirilməsini göstərmək olar.

Bəri başdan bildirim ki, kollektivimiz cari suvarma mövsümünə yüksək əhvalruhiyyə ilə başlamışdır. Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi və istehlakçılara vaxtında çatdırılması istiqamətində işlərimiz bir gün belə səngimir. İlk öncə onu qeyd edim ki, əsas su mənbəyimiz sayılan Xanbulançay su anbarında hazırda tam həcmdə – 52 mln.kubmetr su ehtiyatı toplanmışdır. Bu isə ötən illə müqayisədə təqribən iki dəfəyə yaxın çoxdur.

Son illər rayonumuzda çəltikçiliyin inkişafı ilə əlaqədar suvarma suyuna tələbat artmışdır. Bu tələbatı təmin etmək məqsədilə balansımızda olan su tutarları, o cümlədən Hüşnəhi sututarının əsas su buraxıcı qazanı təmir edilmiş, digər sututarlarında da cari təmir işləri aparılmaqla onların hamısı suvarma üçün hazır vəziyyətə gətirilmişdir.

Lənkərançay və Bəşəruçay üzərindəki suqəbuledici qurğular təmir olunmuş, onların mexaniki hissələri yağlanmış, elektrik qurğuları sazlanmışdır.

İstisu qəsəbəsi ərazisində yerləşən 5 nömrəli nasos stansiyasında mövcud nasazlıqlar aradan qaldırılmış, 72 metr yüksəklikdə yerləşən hovuzun doldurulmasına xidmət edən ikinci nasos quraşdırılmış, nəticədə suvarmanın dayanıqlı və mütəşəkkil aparılması təmin edilmişdir.

Torpaq kanallarda da suyun ötürülməsi məqsədilə Boladi, Cil, Ləj, Viravul, Gərmətük, Yuxarı Nüvədi, Şağlaser və digər yaşayış məntəqələrində qazma işlərinin həcmi 2019-cu ilin birinci rübündə 122 min kubmetr, hamarlama işlərinin həcmi isə 115 min kubmetr təşkil etmişdir.

Yeri gəlmişkən, bir daha xatırladım ki, cənab Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkədə taxılçılığın, baramaçılığın, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, sitrus meyvələrinin, pambıqçılığın, üzümçülüyün və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar təsdiq edilmiş dövlət proqramları və tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlərin həyata keçirilməsi ilə bizim də məsuliyyətimiz xeyli artmışdır.

Bu il su ehtiyatlarımızın keçən ilə nisbətən çox olmasına baxmayaraq, qənaət rejiminə əməl etməyi və suyun istifadəsində israfçılığa yol verməməyi qarşımıza məqsəd qoymuşuq. Həmişə olduğu kimi, bu ilki mövsümdə də sonadək əkinçilərin yanında olacaq, işgüzar, sistemli əməyimizlə ölkədə ərzaq və xammal bolluğu yaradılması işinə töhfəmizi verəcəyik.

Söhbəti yazdı:
Ağaddin BABAYEV,
"Lənkəran"ın müxbiri.

LƏNKƏRANDA SU TƏSƏRRÜFATI VƏ MELİORASİYA İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI QEYD OLUNUB

İyunun 3-də Lənkəran şəhərində su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günü münasibətilə yığıncaq keçirilib. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev xatirə parkına gələrək Ümummilli Liderin abidəsini ziyarət etməklə sözügedən sahənin inkişafında müstəsna xidmətləri olmuş dahi şəxsiyyətə ehtiramlarını bildiriblər.

Daha sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) akt zalında bayram tədbiri keçirilib. ŞİH başçısının birinci müavini Möhübbət Babayev tədbir iştirakçılarını İcra başçısı Taleh Qaraşovun adından təbrik edərək su təsərrüfatı və meliorasiya işçilərinin fədakar əməyindən söz açıb. Natiq vaxtilə Ümummilli Lider Heydər Əliyevin ardıcıl diqqəti ilə inkişaf etmiş su təsərrüfatının bu gün cənab Prezident İlham Əliyevin yaxından qayğısı hesabına inkişafının ən yüksək mərhələsinə çatdığını, əhalinin içməli su ilə təchizatının və əkin sahələrinin suvarma imkanlarının daha da yaxşılaşdığını diqqətə çatdırıb.

Yığıncaqda çıxış edən digər natiqlər ölkənin su təsərrüfatının yenilənməsi, əhalinin təmiz içməli su ilə təchizatı sahəsində dövlət səviyyəsində görülən işləri yüksək dəyərləndirməklə su təsərrüfatı işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonda rayonun ictimai-siyasi həyatında, həmçinin su təsərrüfatı və meliorasiyanın inkişafında fəal iştirak edən bir qrup əmək qabaqcılına Lənkəran ŞİH-nin Fəxri fərmanları təqdim olunub.

"Lənkəran"

2019-CU İLİN BİRİNCİ RÜBÜNDƏ LƏNKƏRAN RAYONUNUN SOSİAL -İQTİSADİ İNKİŞAFININ YEKUNLARI

Sənaye

2019-cu ilin yanvar-mart aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 8,4 faiz artaraq 9396,7 min manat təşkil etmişdir. Sənaye məhsulunun 0,6 faizi mədənçıxarma, 71,5 faizi emal, 25,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 27,9 faiz olmuşdur. Ümumi istehsalın 72,1 faizi sənaye məhsullarının istehsalı, 27,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

İstehsal edilmiş məhsulun 8762,0 min manatı istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 aprel 2019-cu il vəziyyətinə 4884,9 min manatlıq hazır məhsul olmuşdur.

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 50,6 min manat olmaqla, əvvəlki ilin yanvar-mart aylarına nisbətən 2,1 dəfə artmışdır.

Sahənin əsas məhsulu olan tikinti qumu hasilatı 7554 ton təşkil etmiş və keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,1 dəfə artmışdır.

Emal sənayesində yanvar-mart aylarında 6721,3 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Əvvəlki ilin yanvar-mart ayları ilə müqayisədə içki istehsalında 55,6 faiz azalma, qida məhsullarının istehsalında 13,8 faiz artım müşahidə olunmuşdur.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda dövr ərzində 2384,3 min manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faizlik azalma müşahidə olunmuşdur. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 51,7 faiz azalaraq 240,5 min manat təşkil etmişdir.

Cari ilin yanvar-mart aylarında sənaye müəssisələrində siyahı tərkibində olan işçilərin sayı əvvəlki ilin müvafiq dövründə olduğundan 9,8 faiz azalaraq 1609 nəfər təşkil etmişdir. Çalışan işçilərin orta aylıq nominal əmək haqqı 388,2 manat olmuş və əvvəlki ilin yanvar-mart aylarına nisbətən 23,4 faiz artmışdır.

Əsaslı tikinti

2019-cu ilin birinci rübündə bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatlar tərəfindən iqtisadiyyatın və sosial sferanın inkişafına bütün maliyyə mənbələri hesabına 9557,4 min manat əsas kapitala investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 8808,4 min manat olmuşdur.

Cari ilin birinci rübündə ümumi sahəsi 2655,6 kvadrat metr (əvvəlki ildəkindən 8,3 faiz az) olan 22 yaşayış evi tikilib istifadəyə verilmişdir. İstifadəyə verilmiş yaşayış evlərinin hamısı əhalinin şəxsi vəsaiti hesabına inşa edilmişdir.

Yaşayış evlərinin və qeyri-yaşayış tikililərinin dəyəri 1204,4 min manat olmuşdur.

Tikinti sahəsində fəaliyyət göstərən tikinti müəssisələri hesabat ilinin birinci rübündə öz gücləri ilə 7656,0 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 21,7 faiz az tikinti işləri yerinə yetirmişdir. Tikinti işlərinin 447,4 min manatını (5,8 faizini) yeni tikinti, yenidənqurma və genişləndirmə, 608,2 min manatını (8,0 faizini) əsaslı təmir, 6600,4 min manatını (86,2 faizini) cari təmir təşkil etmişdir. Öz gücləri ilə yerinə yetirilmiş tikinti işlərinin 6579,1 min manatını (85,9 faiz) dövlət mülkiyyətində olan təşkilatların, 1076,9 min manatı (14,1 faiz) qeyri-dövlət mülkiyyətində olan tikinti təşkilatlarının payına düşür.

2019-cu il aprel ayının 1-i vəziyyətinə tikinti sahəsində fəaliyyət göstərən müəssisələrdə işləyənlərin orta siyahı sayı 516 nəfər olmuş, onların orta aylıq nominal əmək haqqı 309,3 manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz azalmışdır. Fəaliyyət göstərən tikinti müəssisələrində çalışan işçilərin 57,8 faizi dövlət təşkilatlarında, 42,2 faizi isə qeyri-dövlət təşkilatlarında cəmləşmişdir.

Kənd təsərrüfatı

2019-cu ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 10561,9 min manat təşkil etmişdir ki, onun da 10544,4 min manatı heyvandarlıq, 17,5 min manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,3 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,3 faiz, bitkiçilik məhsulları üzrə isə 2,7 faiz artmışdır.

Bitkiçilik. Rayonda yaz-tarla işləri aparılır və 2019-cu il aprel ayının 1-nə kimi 1344 hektar sahədə yazlıq bitkilərin səpini aparılmışdır. Bu dövrdə 6 hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 4 hektarı dən üçün qarğıdalı), 378 hektar sahədə kartof, 726 hektar sahədə tərəvəz əkilmişdir.

Heyvandarlıq. 2019-cu ilin yanvar-mart aylarında quş əti də daxil olmaqla diri çəkidə 1501,3 ton ət, 7910,8 ton süd, 4675 min ədəd yumurta istehsal edilmiş, 2018-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 2,7 faiz, süd istehsalı 1,1 faiz, yumurta istehsalı 23,7 faiz artmışdır.

2019-cu il aprelin 1-i vəziyyətinə ölkə üzrə 52517 baş iribuynuzlu mal-qara, o cümlədən 23959 baş inək və camış, 23292 baş qoyun və keçi mövcud olmuşdur. İribuynuzlu mal-qaranın 45,6 faizini inək və camışlar təşkil edir.

Cari ilin yanvar-mart aylarında quşçuluq fabriklərində diri çəkidə 25,7 ton quş əti istehsal olunmuşdur. Ümumilikdə fabriklər üzrə cəmi quşların sayı 34000 baş olmuşdur.

İstehlak bazarı

2019-cu ilin yanvar-mart aylarında rayonun istehlak bazarında əhaliyə 115707,2 min manatlıq istehlak malları satılmış və 24802,4 min manatlıq ödənişli xidmətlər göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarətin dövriyyəsinin həcmi 4,5 faiz, iaşənin dövriyyəsi 1,7 faiz, ödənişli xidmətlərin həcmi 1,5 faiz artmışdır.

Rayon üzrə pərakəndə ticarət dövriyyəsinin 9557,9 min manatı və ya 8,3 faizi hüquqi şəxslərin payına düşmüşdür. Ötən ilin yanvar-mart aylarına nisbətən bu müəssisələr üzrə satışın real həcmi 7,6 faiz azalmışdır.

2019-cu ilin yanvar-mart ayları ərzində rayon əhalisinə yarmarkalardan və bazarlardan 17356,1 min manatlıq, digər yerlərdə ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən isə 88793,2 min manatlıq istehlak malları satılmışdır.

2019-cu ilin ilk üç ayında ticarətdən rayonun hər sakini tərəfindən orta hesabla 506 manatlıq, o cümlədən hüquqi şəxslərdən 42 manatlıq, fiziki şəxslərdən 464 manatlıq istehlak malları alınmışdır.

İstehlak mallarının 15,0 faizi ərzaq, əşya və qarışıq mallar satışı yarmarkalarında və kənd təsərrüfatı məhsulları bazarlarında, 76,7 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən satılmışdır.

Əhalinin alıcılıq qabiliyyətinin artması pərakəndə ticarət dövriyyəsinin strukturuna da müsbət təsir göstərmiş, ticarət dövriyyəsində əhalinin həyat səviyyəsini səciyyələndirən keyfiyyət göstəricisindən biri olan qeyri-ərzaq mallarının payının artması müşahidə olunmuşdur. 2019-cu ilin ilk rübündə əhaliyə 72677,3 min manatlıq ərzaq, 43029,9 min manatlıq qeyri-ərzaq malları satılmış və onların ümumi əmtəə dövriyyəsində xüsusi çəkisi müvafiq olaraq 62,8 və 37,2 faiz olmuşdur.

2019-cu ilin yanvar-mart aylarında iaşə müəssisələrindən 3130,7 min manatlıq və ya əvvəlki ilin səviyyəsindən 1,7 faiz çox əmtəə satılmışdır.

Hesabat ilinin əvvəlindən rayon əhalisinə 24802,4 min manatlıq və ya əvvəlki ilin eyni dövrünün səviyyəsindən 1,5 faiz çox ödənişli xidmətlər göstərilmişdir.

Hüquqi şəxslər tərəfindən göstərilmiş xidmətin həcmi 4,6 faiz, fiziki şəxslər tərəfindən göstərilmiş xidmətlərin həcmi isə 0,4 faiz artmışdır.

Hesabat rübündə əhaliyə göstərilmiş xidmətlərin 23,8 faizi dövlət müəssisələrinin payına düşmüşdür. Həmin müəssisələr tərəfindən əhaliyə göstərilmiş xidmətlərin real həcmi 0,2 faiz artmış və 5907,4 min manat olmuşdur. Qeyri-dövlət müəssisələri tərəfindən əhaliyə 18895,0 min manatlıq və ya əvvəlki ilin ilk üç ayı ilə müqayisədə 1,9 faiz çox ödənişli xidmət göstərilmişdir.

2019-cu ilin yanvar-mart ayında istehlak mallarının qiymətləri və xidmət tarifləri 2018-ci ilin yanvar-mart aylarına nisbətən 2,1 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 1,5 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 1,2 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 3,6 faiz bahalaşmışdır.

Nəqliyyat və rabitə

2019-cu ilin birinci rübündə avtomobil nəqliyyatı ilə 681 min ton və ya 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,9 faiz çox yük daşınmışdır. Bu dövrdə yük dövriyyəsi keçən ilin yanvar-mart aylarına nisbətən 2,7 faiz artaraq 105058,3 min ton-km təşkil etmişdir.

Son ilin yanvar-mart aylarında sərnişin daşınması 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,7 faiz artmış və 8290 min nəfər olmuşdur. Sərnişin dövriyyəsi isə 77766,0 min sərnişin-km olmaqla 2,2 faiz artmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışının həcmi 2588,5 min manat olmuş və 2018-ci ilin birinci rübü ilə müqayisədə 0,7 faiz artmışdır. Məhsul buraxılışında yük daşınmasından əldə olunan gəlirlər 849,2 min manat (ümumi gəlirin 32,8 faizi), sərnişin daşınmasından əldə olunan gəlirlər 1739,3 min manat (ümumi gəlirin 67,2 faizi) olmuşdur.

Fiziki şəxslər üzrə məhsul buraxılışının həcmi 5,1 faiz artmış və 2284,8 min manat təşkil etmişdir. Ümumi məhsul buraxılışında onun xüsusi çəkisi 88,3 faiz olmuşdur.

2019-cu ilin birinci rübündə informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, əhaliyə faktiki qiymətlərlə 709,7 min manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,3 faiz çox xidmət göstərilmişdir. Rabitə xidmətlərinin 86,2 faizi bilavasitə əhaliyə göstərilmişdir.

Lənkəran əhalisinin telefon rabitəsi ilə təminatı yüksək səviyyədədir. 2019-cu ilin aprelin 1-i vəziyyətinə rayonda əsas telefon aparatlarının sayı 31935 ədəd təşkil etmişdir ki, bunun da 30248-i (94,7 faizi) əhalidədir. Bu gün hər yüz ailədən 67-si telefon rabitəsi ilə təmin olunmuşdur.

Telefon ATS-lərinin 100 faizi elektronlaşdırılmışdır.

İnformasiya və rabitə müəssisələrində 288 nəfər işləmiş, bir işçinin orta aylıq əmək haqqı 404,3 manat olmaqla keçən ili müvafiq dövrü ilə müqayisədə 7,3 faiz artmışdır.

Əmək bazarı

2019-cu il aprelin 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 116,9 min nəfər olmuş, onlardan 110,6 min nəfərini məşğul əhali təşkil etmişdir.

Cari il martın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 21489 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 13491 nəfər, qeyri-dövlət sektorunda isə 7998 nəfər təşkil etmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 13,2 faizi məhsul istehsalı sahələrində, o cümlədən 4,4 faizi emal sənayesində, 2,2 faizi tikintidə, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 0,1 faizi mədənçıxarma sənayesində, 1,1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 31,5 faizi təhsil, 26,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 11,0 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 5,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 2,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,5 faizi istirahət, əyləncə və incəsənət, 1,2 faizi peşə, elmi və texniki fəaliyyət, 0,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,3 faizi informasiya və rabitə, 1,2 faizi maliyyə və sığorta fəaliyyəti, 0,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,5 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışmışlar.

2019-cu ilin yanvar-fevral aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 152,7 saat təşkil etmişdir.

2019-cu il aprel ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 391 nəfər, işsizlikdən sığorta ödənişini alanların sayı isə 18 nəfər olmuşdur.

2019-cu ilin yanvar-fevral aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 8,2 faiz artaraq 310,2 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 324,0 manat, özəl müəssisələrdə isə 287,0 manat olmuşdur.

Maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, dövlət idarəetməsi sahələrində orta aylıq nominal əmək haqqı rayon üzrə orta göstəricidən yüksək olmuşdur.

Demoqrafik vəziyyət

Rayon üzrə əhalinin sayı ilin əvvəlindən 282 nəfər və ya 0,1 faiz artaraq 2019-cu il mart ayının 1-i vəziyyətinə 228913 nəfərə çatmışdır. Əhalinin 38,8 faizini şəhər, 61,2 faizini kənd sakinləri, 50,2 faizini kişilər, 49,8 faizini isə qadınlar təşkil edir.

Əhalinin ümumi sayından 23,3 faizi 0-14 yaşda olan uşaq və yeniyetmələrdən, 68,1 faizi əmək qabiliyyətli yaşda, 8,6 faizi isə əmək qabiliyyətli yaşdan yuxarı olanlardır.

Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbəsi tərəfindən cari ilin ilk üç ayı ərzində 615 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,1-dən 10,8-ə qədər azalmışdır.

2019-cu ilin yanvar-mart aylarında rayonda 353 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici artaraq 5,9-dan 6,2-ə qalxmışdır.

Bu ilin ilk üç ayında Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbəsi tərəfindən 187 nikah və 72 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 3,5-dən 3,3-ə qədər azalmış, boşanmaların sayı isə 1,2-dən 1,3-ə qədər artmışdır.

Lənkəran Şəhər Statistika İdarəsi

NƏSİMİNİN 650 İLLİK YUBİLEYİ QEYD OLUNUB

Lənkəran Şəhər Mərkəzi Kitabxanasında "Nəsimi ili" çərçivəsində "Nəsimi parlaq bir günəşdir" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən Lənkəran Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nuranə Nəsirova dahi Azərbaycan şairi İmadəddin Nəsiminin klassik ədəbiyyatımızda şeir nümunələrinin əvəzsiz olduğunu vurğulayaraq bildirib ki, 2019-cu ildə böyük şairin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2019-cu il tarixli Sərəncamına əsasən 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ilə əlaqədar ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da müxtəlif tədbirlər keçirilir.

Toplantıda Lənkəran Dövlət Universitetinin müəllimi, filologiya elmləri doktoru, professor Yədulla Ağazadənin şairin həyat və yaradıcılığı barədə məruzəsi dinlənilib.

Qeyd olunub ki, Azərbaycanın mütəfəkkir şairi İmadəddin Nəsimi ilk təhsilini Şamaxıda alıb, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənib.

Nəsimi dövrünün görkəmli ariflərindən müvafiq elmlərdən təhsil aldıqdan sonra hürufi Fəzlullah Nəiminin xidmətinə gəlib, onun tərbiyə və təlimlərindən bəhrələnib. Səfərlərinin hamısında özünün şeyx mürşidi Nəimi ilə yol yoldaşı olub və onun qızı ilə evlənib.

Şairin əsərlərinin təhlili göstərir ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı universitetlərinin tələbinə cavab verəcək bir dərəcədə kamil təhsil ala bilib. O, dilləri elə yaxşı öyrənmişdi ki, Azərbaycan, fars və ərəb dillərində eyni dərəcədə gözəl şeirlər yaza bilirdi.

Bildirilib ki, Hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi Vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. O, Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub.

Mütəfəkkir şairin Azərbaycan dilində yazdığı şeirlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Onun rübailəri Azərbaycan xalq şeiri nümunələri olan bayatılara çox yaxındır.

Qeyd olunub ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikr tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Şairin yaradıcılığı Azərbaycan dili və ədəbiyyatının inkişafında mühüm bir mərhələdir. Onun yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl – Allah dayanır. İnsan üçün ən yüksək, ülvi duyğu həmin sevginin vüsalına yetişmək, ona qovuşmaq, onda əriyib yox olmaqdır.

Tədbirdə böyük şairin şeirlərindən parçalar ifa olunub.

Sonda Nəsiminin şeirlərini daha səlis söyləyənlər fəxri fərmanla mükafatlandırılıb.

A.ŞAĞLASERLİ

QƏHRƏMANLAR UNUDULANDA ÖLÜRLƏR

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və "Yayım" Assosiasiyası İctimai Birliyinin təşkilatçılığı ilə "Qarabağ savaşında əlil olan qazilərimizin tanınması və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə dair tədbirlərin təşkili" layihəsi çərçivəsində Lənkəran rayonundakı şəhid Rüfət Həsənov adına Viravul kənd 1 nömrəli tam orta məktəbində Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələ üzvləri ilə şagird və müəllim kollektivlərinin görüşü keçirilib.

Tədbir iştirakçıları əvvəlcə məktəbin həyətində Qarabağ müharibəsində şəhid olmuş Rüfət Həsənovun büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlanan görüşdə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən məktəbin direktoru Azər Rəcəbli bu cür maarifləndirmə tədbirlərinin gənc nəslin təlim-tərbiyəsində, vətənpərvərlik ruhunda böyüməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Layihənin məqsəd və mahiyyəti haqqında iştirakçıları məlumatlandıran "Yayım" Assosiasiyası İctimai Birliyinin sədri, layihə rəhbəri Yaşar Zeynalov ölkəmizdə şəhidlərlə, Qarabağ mövzusu ilə bağlı hazırlanan layihələrin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən həmişə dəstəkləndiyini, bu mövzunun dövlətin ən ümdə maraqlarından biri olduğunu qeyd edərək, "Yayım" Assosiasiyası tərəfindən əvvəllər də Qarabağ və şəhidlər mövzusu ilə bağlı layihələrin həyata keçirildiyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən şəhid ataları Şakir Həsənov, Ramiz Məhərrəmov, Layim Zülfüqarov, şəhid anaları Lyuba Məhərrəmova və Esmira Ağayeva övladları ilə fəxr etdiklərini söyləyərək, ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Qarabağ Müharibəsi Veteranları və Əlilləri Cəmiyyəti Lənkəran təşkilatının sədri Əbülfət Əliyev, Qarabağ qazisi Malik Əhədov, Lənkəran Şəhər Təhsil Şöbəsinin aparıcı mütəxəssisi Cəmil Axundzadə, şəhid Canəli Əzimov adına Viravul kənd 2 saylı tam orta məktəbinin direktoru Araz Babayev, şair Ağamir Cavad, Viravul kənd Ziyalılar Klubunun müdiri Ağadadaş Əliyev və başqaları çıxışlarında Azərbaycana xas olan qəhrəmanlıq ənənəsinin bu gün də yaşadığını, Vətən uğrunda canından keçən şəhidlərin heç vaxt unudulmayacağını vurğulayıblar.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin apardığı siyasət nəticəsində işğal altında olan torpaqlarımızın tezliklə düşmən tapdağından azad olunacağına əminliklərini ifadə ediblər.

Görüşdə şagirdlərin ifasında təqdim olunan "Şəhidlər ölmür" ədəbi-bədii kompozisiya tədbir iştirakçılarına kövrək anlar yaşadıb.

Sonda şagirdlərə vətənpərvərlik mövzusunda qələmə alınmış bədii kitablar və məktəb ləvazimatları hədiyyə olunub.

Ağaddin ŞAĞLASERLİ

LƏNKƏRANDA UŞAQ HÜQUQLARI MÜZAKİRƏ OLUNUB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi, Lənkəran Rayon Təhsil Şöbəsi və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "İnsan hüquqları aylığı" çərçivəsində keçirilən növbəti tədbirdə uşaq hüquqları əsas müzakirə mövzusu olub.

Tədbirdə çıxış edən DQİDK-nin Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşları Tacəddin Sadıqov, Emin Həmidli, Ombudsmanın Cəlilabad Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, Lənkəran Rayon Təhsil Şöbəsinin əməkdaşı Cəmil Axundzadə, Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Ağakişi Baloğlanlı bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.

Tədbirdə, həmçinin insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququ geniş müzakirə edilib.

Natiqlər çıxışlarında 28 may 1918-ci ilin Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazıldığını qeyd edərək Ümummilli Lider Heydər Əliyevin Xalq Cümhuriyyətinin ənənələrinin yaşadılması istiqamətində mühüm addımlar atdığını və bu gün Prezident İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirildiyini diqqətə çatdırıblar.

Barat KƏRİMOV

LƏNKƏRANDA "OXU BAYRAMI"

Mayın 21-də Lənkəran şəhərindəki General Həzi Aslanov Xiyabanında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan "Oxu bayramı" keçirilib. Tədbirdə rayonun təhsil, səhiyyə, mədəniyyət işçiləri, gənclər, ziyalılar, ictimaiyyət və KİV nümayəndələri, məktəblilər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkəran Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, "Tərəqqi" medallı Nuranə Nəsirova Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat və fəaliyyətindən, kitabxana sahəsinə olan dövlət qayğısından, xüsusilə son dövrlərdə bu sahədə qazanılan uğurlar və yeniliklərdən bəhs edib.

Tədbirdə çıxış edən rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov, Lənkəran Dövlət Universitetinin professoru Yədulla Ağazadə, şair və yazıçılardan Ağamir Cavad, Hafiz Mirzə, Əli Nəcəfxanlı, Etibar Vəliyev, jurnalist Əlisəfa Həsənov və digərləri müasir cəmiyyətimizdə kitabın və kitabxanaların rolu haqqında ətraflı söz açıblar.

"Oxu bayramı"nın bədii hissəsində rayonun özfəaliyyət kollektivlərinin və məktəblilərin ifasında şeirlər və rəngarəng mahnılar, rəqs nümunələri təqdim olunub.

Qonaqlar ayrı-ayrı tanınmış simalara həsr olunmuş kitab sərgiləri ilə tanış olublar.

Sonda bir qrup fəal oxucuya fəxri fərman verilib.

LƏNKƏRANLI ŞAİR RƏSUL RZA MÜKAFATINA LAYİQ GÖRÜLÜB

Mayın 20-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Beynəlxalq Rəsul Rza Mükafatı laureatlara təqdim olunub.

Hər il görkəmli Xalq şairi Rəsul Rzanın doğum günü ərəfəsində təqdim edilən Rəsul Rza Mükafatı Beynəlxalq Rəsul Rza Fondu tərəfindən təsis edilib.

Tədbiri giriş sözü ilə Fondun sədri, Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq şairi Fikrət Qoca açaraq, mükafat haqqında ətraflı məlumat verib.

Daha sonra mükafata layiq görülmüş laureatlar elan olunub.

İlk mükafat Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyliyə təqdim edilib. İsa Həbibbəyli Rəsul Rza yaradıcılığı haqqında çıxış edərək, bu mükafatın onun üçün olduqca dəyərli olduğunu vurğulayıb.

Xalq rəssamı Arif Hüseynov, tənqidçi, filologiya elmləri doktoru, professor Rüstəm Kamal, Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru, şair Rəşad Məcid, tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, AYB Qarabağ Bölməsinin sədri, şair, professor Ənvər Əhməd, şair Maşallah Məftun, şair Tahir Taisoğlu, lənkəranlı şair Etibar Vəliyev Beynəlxalq Rəsul Rza Mükafatına layiq görülüblər.

Laureatlar Azərbaycan poeziyasının görkəmli siması Rəsul Rza yaradıcılığı haqqında fikirlərini bölüşdükdən sonra Fondun rəhbərliyinə təşəkkürlərini bildiriblər. Özbəkistan şairi Babaxan Şərifin mükafatı şair, tərcüməçi, filologiya elmləri doktoru Ramiz Əsgərə təqdim olunub.

Sonda Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar mükafat alan qələm adamlarını təbrik edib.

BİRİNCİ LƏNKƏRAN BEYNƏLXALQ TEATR FESTİVALI BAŞLAYIB

Mədəniyyət Nazirliyi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində iyunun 1-də I Lənkəran Beynəlxalq Teatr Festivalına start verilib.

Festivala ölkəmizin 10 sənət ocağı-Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Kukla Teatrı, Şuşa Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Kukla Teatrı, Lənkəran Dövlət Dram Teatrı, Bakı Uşaq Teatrı, Qax Dövlət Kukla Teatrı, Şəki Dövlət Dram Teatrı, Salyan Dövlət Kukla Teatrı və müstəqil "Ol" Teatrı öz tamaşaları ilə qatılıblar.

Beynəlxalq festivalda həmçinin Böyük Britaniyanın "Two Destination Language" Teatrı, Gürcüstanın "Azad" Teatrı, İranın "Muğan Hünər" və "Mika" Teatrları, habelə "Ünvan" Ərdəbil şəhər teatrının kollektivləri iştirak edirlər.

Festival günlərində teatr truppaları təqdim olunacaq tamaşalara baxmaqla yanaşı, bir-biri ilə sənət mübadiləsi etmək, Lənkəranın gəzməli-görməli məkanları ilə tanış olmaq imkanı qazanıblar.

İyunun 1-də Lənkəran Dövlət Dram Teatrının səhnəsində Beynəlxalq Teatr Festivalının açılışı olub.

Açılış mərasimində çıxış edən Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri Azərpaşa Nemətov festivalda iştirak edən teatr kollektivlərini təbrik edərək onlara yaradıcılıq uğurları arzulayıb.

Azərbaycanda Beynəlxalq Teatr Festivallarının keçirilməsinin artıq ənənə halını aldığını vurğulayan A.Nemətov Lənkəran Dövlət Dram Teatrının ona əziz olduğunu, buradakı aktyorların sırasında onun tələbələrinin də çalışdığını bildirib, Lənkəranda keçirilən I Beynəlxalq Teatr Festivalının əsl sənət bayramına çevriləcəyinə əminliyini ifadə edib.

Britaniya Şurasının direktor müavini Nigar Baimova isə çıxışında 1992-ci ildən Azərbaycanda fəaliyyət göstərdiklərini qeyd edərək Böyük Britaniyanın "Two Destination Language" Teatrının Cənubi Qafqazda ilk dəfə məhz Azərbaycanda "Near Gone" səhnə əsəri ilə çıxış etdiyini bildirib.

Festivalın birinci günü Lənkəran Dövlət Dram Teatrının aktyorları Tərlan Abdullayevin müəllifi və quruluşçu rejissoru olduğu "Tilsimlənmiş qız" tamaşasını oynayıblar. Tamaşanın quruluşçu-rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Günün ikinci yarısında isə Böyük Britaniyanın "Two Destination Language" Teatrının "Near Gone" adlı səhnə əsəri tamaşaçılara təqdim olunub.

Qeyd edək ki, I Lənkəran Beynəlxalq Teatr Festivalı iyunun 5-dək davam edəcək.

TANINMIŞ AŞPAZ ŞAHHÜSEYN KƏRİMOVUN XATİRƏSİ ŞƏRƏFİNƏ AZƏRBAYCAN AŞPAZLARININ ÇEMPİONATI KEÇİRİLİB

Mayın 15-dən 17-dək Bakı Ekspo Mərkəzində keçirilən XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi – "WorldFood Azerbaijan" sərgisi çərçivəsində ilk dəfə Azərbaycan Aşpazlarının Çempionatı – "CHEFS CUP" keçirilib. Bu çempionat tanınmış şef aşpaz Şahhüseyn Kərimovun əziz xatirəsinə həsr olunub. Yarışda 18 komanda iştirak edib və onlardan 6 komanda superfinala çıxıb. Altı komanda arasında isə ilk üç yerin qalibləri müəyyənləşib. Komandalardan "PMD Hospitality" birinci, "JW Marriott" ikinci, "Boulevard Hotel" üçüncü olub.

"Dreamland", "Gate 25", "Absheron Hotel Group" komandaları isə müvafiq olaraq dörd, beş, altıncı yerlərdə qərarlaşıblar.

Qeyd edək ki, yarışın hakimləri A kateqoriyalı hakim, hakimlər heyətinin sədri, sloveniyalı İztok Legat, Dünya Kulinariya Assosiasiyasının İdarə Heyətinin üzvü almaniyalı Uve Mişeel, Çernoqoriya Kulinariya Assosiasiyasının rəhbəri Vuksan Mitroviç, Rusiya Federasiyasının BBQ Klubunun prezidenti Don David, Serbiya Kulinariya Assosiasiyasının fəxri prezidenti Corce Kostiç, Makedoniya Kulinariya Assosiasiyasının rəhbəri Adriana Alaçki, Dünya Kulinariya Assosiasiyasının hakimi, rusiyalı Nikolay Baratov, Dünya Kulinariya Assosiasiyasının hakimi, mavrikili Alan Paen, "Vizit Dagestan" layihəsinin rəhbəri, rusiyalı Maxaç Vahabov, Dünya Kulinariya Assosiasiyasının hakimi, isveçrəli Stevo Karapanca, serbiyalı Daniela Vlaxoviç idi.

Yarış "Caspian Event Organaiser", "ATNC Public Union", Chefs.az tərəfindən təşkil olunub.

Təşkilatçılar 2020-ci ildə tanınmış aşpazın xatirəsinə beynəlxalq

müsabiqə keçirməyi və əsas mükafatı "Qızıl Şah" adlandırmağı planlaşdırırlar. Çempionatın əsas məqsədi gənc şef aşpazların bacarıqlarının artırılmasına, Azərbaycan aşpazlarının dünyada irəliləməsinə, ölkədə qastronomik turizmin inkişafına nail olmaqdır.

Səhifəni hazırladı: Ağaddin BABAYEV

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi "2019-2020-ci tədris ilində DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbulu ilə əlaqədar olaraq müsabiqə elan edir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsilə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində I ixtisas qrupunun fənləri üzrə keçirilmiş imtahanda 350-dən yuxarı bal toplamış, Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyənlər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2019-cu ilin may ayının 28-dən iyun ayının 28-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan – 17:00-dək Daxili İşlər Nazirliyinin İnzibati binasında (daxili telefon 12-48) həyata keçiriləcəkdir.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– *Şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

– *Təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-nə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);*

– *Yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-nə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

– *İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

– *Oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-nə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

– *9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda)*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları (012)-454-12-78, (012)-590-92-48, (012)-590-99-47.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda, daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Xüsusi-Həkim Komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında Nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər. Fiziki hazırlıq üzrə minimal normativlər – oğlanlar üçün: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə; Fiziki hazırlıq normativlərinin birini ödəyə bilməyən, Nazirliyin seçmə və ya Tibb Komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlər nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** internet saytında yerləşdiriləcəkdir.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

Birinci mərhələdə buraxılış imtahan fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə keçirilmiş test-imtahanların nəticələrinə əsasən kursantlar seçilir.

İkinci mərhələnin ikinci imtahanının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmişdir. Abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 18 sentyabr 2019-cu il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 16 sentyabrda başlamaqla, tədris Azərbaycan dilində aparılır, təhsilin müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, təhsil və kurs müddətində Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "XTB050615–İnformasiya təhlükəsizliyi" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələr verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Lənkəran Şəhər-Rayon Polis Şöbəsi

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

"İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində "Polisə İctimai Dəstək" mülki işçi vəzifələrinə vakant yerlər üzrə Namizədlər seçilir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, ali və ya orta ixtisas, yaxud tam orta təhsilli, boyu 180 santimetrdən yuxarı, yaşı 20-dən 23-dək olan, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), idman cüssəli, Lənkəran rayonunda daimi qeydiyyatda olan kişi cinsli vətəndaşlar iştirak edə bilərlər.

Lənkəran Şəhər-Rayon Polis Şöbəsinə gələn namizədlər şəxsiyyət vəsiqəsi, hərbi bilet və Attestat və yaxud Diplom təqdim etməlidirlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının vəzifəli şəxslərinin rəhbərliyi altında ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər.

İctimai asayişin qorunmasında 2 il ərzində əməkdaşlıq etmiş şəxslərə daxili işlər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcəkdir.

Lənkəran Şəhər-Rayon Polis Şöbəsi

VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

Daxili İşlər Nazirinin birinci müavini, polis general-leytenantı cənab Vilayət Eyvazov tərəfindən cari ilin iyun ayının 22-də saat 10:00-da Lənkəran şəhərində – bölgə üzrə Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı və Lerik rayonlarından müraciət etmiş şəxslərin daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı vətəndaşların qəbulu keçiriləcəkdir.

Vətəndaşlar bu məsələlərlə bağlı Lənkəran Şəhər-Rayon Polis Şöbəsində qəbula yazıla bilərlər.

Lənkəran Şəhər-Rayon Polis Şöbəsi

Təbrik edirik!

ŞAİR İLTİFAT SALEH "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF OLUNDU



Mayın 25-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının mədəniyyət xadimlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilib. Onların arasında həmyerlimiz, Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölgəsi üzrə məsul katibi İltifat Saleh oğlu Salayevin (İltifat Saleh) də adı var. Bu münasibətlə İltifat müəllimi oxucular adından ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və yeni yaradıcılıq uğurları diləyirik.

"Lənkəran"

ƏZİZ OXUCULAR!

2019-cu ilin II yarımili üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir. Əgər Siz doğru, obyektiv informasiya almaq, rayonumuzun ictimai-siyasi, mədəni, sosial həyatını əks etdirən maraqlı materiallar oxumaq istəyirsinizsə "Lənkəran"a abunə olun. Qəzetimizə Mətbuatyayımının rayon şöbəsində və Kapitalbankın Lənkəran filialında abunə yazıla bilərsiniz

ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 12 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

"Lənkəran" qəzeti

İTMİŞDİR

Lənkəran Rayon Hərbi Komissarlığı tərəfindən 1989-cu ildə Havzava kənd sakini **Şirəliyev Nəriman Bəşir oğlunun** adına verilmiş "Əfqanıstan müharibəsi veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN

Dövlət Arxivi Lənkəran filialının kollektivi filialın direktoru Rəfail Rzayevə əzizləri

Namik və Hünərin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Lənkəran" qəzetinin baş redaktoru Əlimərdan Əliyev və kollektivi Yaşar və Rəfail Rzayevlərə əzizləri

Namik və Hünərin

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR: **Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi**

HESAB NÖMRƏMİZ: **AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran filialı lisenziya № V 343 İndeks: 66920**

ÜNVANIMIZ: **Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru**

Buraxılışa məsul Xudaverdi Cavadov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 2100